HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 iyun 2017-cı il
№011 (49)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## GÜRCÜSTAN, TÜRKİYƏ VƏ AZƏRBAYCAN BİRGƏ HƏRBİ TƏLİMLƏRİ KEÇİRİLİB



İyunun 5-də Gürcüstanda “Qafqaz qartalı 2017” adlı Azərbaycan, Gürcüstan və Türkiyə birgə hərbi təlimləri keçirilib. Təlimlər Vazianidəki dördüncü mexanikləşdirilmiş briqadanın poliqonunda baş tutub.

Ongünlük birgə təlimlər ilk dəfədir ki, Gürcüstanda keçirilir. Əvvəlki iki təlim Türkiyədə olub.

Təlimlərdə quru qoşunları və hərbi hava hissələri iştirak edib. Hərbiçilər taktiki, atəş, mühəndis və digər xüsusi tapşırıqları yerinə yetiriblər. Onlar yaşayış məntəqələrində döyüş elementləri və tibbi hazırlıq işlərini də yerinə yetirməli olublar.

Gürcüstan Müdafiə Nazirliyinin məlumatına görə, təlimlər üç ölkənin xüsusi təyinatlı qüvvələrinin imkanlarının inkişafına, bilik və təcrübə mübadiləsinə, habelə xüsusi tapşırıqların yerinə yetirilməsi zamanı əlaqələndirmənin yaxşılaşdırılmasına yönəldilib.

## BAKI AZƏRBAYCAN, TÜRKİYƏ VƏ GÜRCÜSTAN ARASINDA ƏLAQƏLƏRƏ DAİR BEYNƏLXALQ KONFRANSA EV SAHİBLİYİ ETDİ



İyunun 5-də Bakıda “Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əlaqələri: gələcəyə baxış” mövzusunda beynəlxalq konfrans keçirilib.

Azərbaycan prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin (SAM) təşkilatçılığı ilə baş tutan konfransda Azərbaycan prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi Novruz Məmmədov, deputatlar, siyasətçilər, Türkiyə XİN yanında Strateji Araşdırmalar Mərkəzinin və Gürcüstan Strateji və Beynəlxalq Araşdırmalar Fondunun rəhbərləri, bir sıra universitetlərin professorları və digər qonaqlar iştirak ediblər.

Konfrans çərçivəsində “Üçtərəfli münasibətlərdə təhlükəsizlik çağırışları”, “Üçtərəfli münasibətlərin iqtisadi və enerji aspektləri” mövzuları müzakirə olunub.

Konfransda çıxış edən Azərbaycan Prezidenti yanında SAM-ın direktoru Fərhad Məmmədov Azərbaycan, Gürcüstan və Türkiyə üçtərəfli əməkdaşlığının böyük təcrübə və tarixə malik olduğunu diqqətə çatdırıb.

SAM-ın başçısı regionda sülhün və sabitliyin təmin olunması üçün üç dövlətin əməkdaşlığının mühüm əhəmiyyətini qeyd edib. O, deyib: “Tarix əməkdaşlığın bizim müstəqilliyimizi möhkəmləndirdiyini sübut edir. Təhlükəsizliyimizin təmin edilməsi digər dövlətlərə qarşı yönəlməyib. Lakin bir çox əcnəbi dairələr bu formatın kiməsə qarşı yönəldiyini söyləyirlər. Bu məsələdə onlar öz məqsədlərini güdürlər. Biz bu formatı qorumalıyıq”.

Konfransda çıxış edən Gürcüstanın Strateji və Beynəlxalq Araşdırmalar Fondunun nümayəndəsi Kaxa Qoqolaşvili və Türkiyə XİN yanında Strateji Araşdırmalar Mərkəzinin sədri Mesud Özcan Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlığının gərəkliliyini vurğulayıblar.

Konfrans öz işini bölmələrdə davam etdirib.

## PARLAMENT KONSTİTUSİYA DÜZƏLİŞLƏRİ LAYİHƏSİNİN MÜZAKİRƏSİNƏ BAŞLAYIR



Gürcüstanın qanunverici orqanı artıq konstitusiya layihəsinin müzakirələrinə başlayır.

Gürcüstan parlamentinin sədri İrakli Kobaxidzenin məlumatına görə, layihənin bir ay davam edən ümumxalq müzakirələri artıq başa çatıb.

Parlamentin sədri deyib: “Sənədin parlament formatında müzakirələrinə başlayırıq. Bir həftə ərzində komitələrdə dinləmələr həyata keçiriləcək. Bundan sonra plenar formatda müzakirələrə başlanılacaq. Biz 12-26 iyun həftələrində sessiyada müzakirələr keçirmək istəyirdik, lakin Venesiya komissiyasının plenar iclası iyunun 16-a təyin edildiyindən Venesiya komissiyasının yekun rəyini gözləmək qərarına gəldik. Buna görə də növbədənkənar sessiyanı 19 iyun həftəsində çağırmağa məcburuq, ilk oxunuşda müzakirələr keçiriləcək. Bundan sonra biz komitə dinləmələrinə keçəcəyik, onların başa çatmasından sonra plenar müzakirələr davam edəcək”.

## DÜNYANIN GÖMRÜK İŞÇİLƏRİ TBİLİSİDƏ TOPLAŞDILAR



Gürcüstan Maliyyə Nazirliyinin məlumatında bildirilir ki, Tbilisidə Ümumdünya Gömrük Təşkilatının (ÜGT) konfransı keçirilib. Konfransda İT texnologiya sahəsində son zamanlar əldə olunmuş nailiyyətlər və onların gömrük işində tətbiq olunması məsələləri müzakirə edilib.

ÜGT-nin üçgünlük konfransına və sərgisinə 180 ölkədən 600-ə qədər nümayəndə qatılıb. Tədbirdə araşdırmaçılar, sahibkarlar, gömrükçülər və dövlət müəssisələrinin müxtəlif nümayəndələri iştirak ediblər. Konfransı Gürcüstan baş nazirinin birinci müavini, maliyyə naziri Dimitri Kumsişvili açıb.

Kumsişvili deyib: “Gürcüstan yalnız bizim regionda deyil, həm də Avropa və Asiya arasında əsas halqələrdən biri kimi nəhəng ticarət-tranzit qovşağının bərpa olunması yolundadır. Mən belə bir məqamda ÜGT katibliyinin bu konfransın Gürcüstanın paytaxtı Tbilisidə keçirilməsinə şərait yaratmasını yüksək qiymətləndirirəm”.

Ümumdünya Gömrük Təşkilatının əsası 1953-cü ildə qoyulub. Təşkilat 180 ölkəni birləşdirir. ÜGT-nin mənzil qərargahı Brüsseldə yerləşir.

HAQQI HARAMLA AXTARANLAR BARƏDƏ BİR NEÇƏ SÖZ — 2

DONALD TRAMP: GÜRCÜSTANIN MÜSTƏQİLLİYİ VƏ DEMOKRATİYASI BÜTÜN DÜNYA ÜÇÜN NÜMUNƏDİR — 3

QƏTƏR HADİSƏLƏRƏNİN GİZLİ MƏQAMLARI — 4

GÜNAHLARDAN ARINMANIN YOLU TÖVBƏDƏN KEÇİR — 5

CƏMİYYƏTİMİZİN MİLLİ DƏYƏRLƏRİ – ƏT, QIZIL VƏ PUL — 6

SAYAT NOVA MİLLİYƏTCƏ AZƏRBAYCANLI İMİŞ — 7



## HAQQI HARAMLA AXTARANLAR BARƏDƏ BİR NEÇƏ SÖZ

Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

**Düzünə qalsa, mən bu yazını üzərə çıxarmaq, açıb-ağartmaq niyyətimi bir neçə dəfə ertələməli olmuşam. Dəfələrlə bu mövzu ətrafında gəzişmək, fikir bildirmək kimi istəyimi könülsüz də olsa, bir qırağa qoymağın daha doğru yol olduğunu düşünsəm də, bu dəfə istəyimi yenə bilmədim. Nədən bu mövzunu ələ almaq istəmədiyimi də diqqətinizə ərz edim ki, fikrim qaranlıq qalmasın. Birdən bu yazını yazaram, qanmayanı da qandıraram, başqa sözlə "oğru yadına daş salaram" və qaş düzəltdiyim yerdə, durub göz tökərəm düşüncəsi məni əndişələndirirdi. Və ərz etdiyim kimi, bu dəfə istəyimi yenə bilmədim və bu yazını qaralamaq, bu yöndə düşündüklərimi işığa çıxarmaq niyyətimi qətiləşdirdim.**

Yəqin mənim oğurluq barədə söhbət açacağımı artıq anlayanlarınız var və hər birinizin bu mövzuya münasibətdə fərqli fikrinizin olması da mümkündür. Bəri başdan deyim ki, binayi-qədimdən əksər qövmlər, bütün dinlər, sonrakı dönəmlərdə isə konstitusiyalar oğurluğu antibəşəri, antiəxlaqi hal kimi dəyərləndiriblər və bu dəyərləndirmə bu gün də qalmaqdadır. Miladdan öncə XVIII yüzillikdə Hammurapinin yaratdığı qanunlardan üzü bəri oğurluğa qarşı müxtəlif cəzalar müəyyənləşdirilsə də, bəşər oğlu bu ilkin, emprik xislətindən əl çəkmir. Nə verilən həbs cəzaları, hətta ağır bədən cəzaları, oğrunun ən qiymətli silahı, aləti olan əlinin kəsilməsi belə başqaları üçün görk olmur. Əksinə, cəzalar sərtləşdirildikcə oğurluğu özünə peşə edənlərin sıraları artır ki, azalmır. Bax, burda deyiblər: "oğru başına od yağsın".

Oğurluğun səbəblərini araşdırdıqda bir-birini inkar edən istənilən qədər nümunə üzə çıxarmaq mümkündür. Kimi bunu siyasi idarəçiliklə, kimi də iqtisadi keçimsizliklə əlaqələndirə bilər. Bir başqası oğurluğun genetik bir zad olduğunu söyləyib, onu irsiyyətlə bağlaya bilər. Biri də oğurluğun psixoloji hadisə olduğunu dilə gətirə bilər. Etnoqrafiya ilə məşğul olan bir mütəxəssisin bunu məişətdən qaynaqlanan sosial-mədəni hadisə kimi isbatlaması da təbii görünər. Nədən ki, keçmiş məişətimizdə heç olmasa bir dəfə oğurluq etməyən oğlana heç kim qızını vermək istəməzdi və ağlı başında olan qız da belə gənclə ailə qurmağı düşünməzdi.

Oğurluq özünü tarixəqədərki zamanlarda da göstərmiş olmalıdır. Elə həmin dönəmlərdən ta müasir zamanımızadək insan həyatının bütün sahələrində bu və ya digər təbədülatlar baş verdiyi kimi, oğurluq sahəsi də zaman-zaman şəklini dəyişmiş və çeşidli biçimlərdə özünü görsətmişdi. Qarətçilik müharibələrinin boy verməsi, sərvət uğrunda mübarizənin artması oğruların da fəallaşmasına nədən olmuşdu. Mal oğruluğundan pul oğurluğuna keçid baş vermiş, pulun meydana gəlməsiylə cibgirlik adlanan oğurluğun formalaşması arasında bir bağlantını sezməmək mümkün deyil. Yəni dediyim odur ki, oğurluğun çeşidli şəkillər alması cəmiyyətdə baş verən dəyişikliklərdən qaynaqlanmış və bu gün də eyni proses davam etməkdədir. Məsələn, tarix boyu insan oğurluğu olmuş və bu gün də qalmaqdadır. Sadəcə olaraq, forma dəyişib, məzmun isə olduğu kimi qalır. Söz sənətinin meydana çıxması ədəbi oğurluğu, başqa sözlə, plagiat adlanan oğurluq növünü bərabərində gətirib. Və altını cızaraq, deyim ki, xalqımız plagiatdan bu gün də əziyyət çəkməkdədir. İdeyaların oğurlanması da bu şəkildə baş verib. Texnoloji inkişaf kiber oğurluğun yaranmasına təkan verib, onun müəllifidir. İmperiya düşüncəsi başqalarının torpağını qəsb etmək kimi bir oğurluq növünü formalaşdırmayıbmı? Və bu gün də bu, belə deyilmi?

Bu gün özünü "lotu", "qanuni oğru" adlandıranlar, onları özünün qəhrəmanı hesab edib, haramla halal axtarışına çıxmaq istəyənlər göydən ha düşməyiblər? Özünü cəmiyyətə haqq-ədalət mücəssəməsi kimi sırıyan bu tayfa bəzən haqqın tərəfində durmuş kimi də görünə bilər, hətta pozulmuş qaydanı bərpa da edə bilər. Əslində "qanuni oğru" təsisatı çar Rusiyasının geniş əraziləri idarə etmək üçün düşündüyü yöntəmlərdən biri olaraq, bilərəkdən yaradılmış bir zad idi və onun varisi olan sovetlər də bu yöntəmdən yararlanmağı lazım bilirdi. Demokratik cəmiyyət quruculuğu "qanuni oğruları" gözdən saldı və onlar yararsız ünsürlər kimi, cəmiyyətin qanundankənar övladları kimi dünyaya səpələnməli oldular.

P.S.

**Əslində məni üç xəbər bu yazını yazmağı tezləşdirməyə vadar etdi. İlk xəbər DİN-dən gəldi ki, Gürcüstanda 325 "qanuni oğru" qeydə alınıb. Düzdür, onların əksəriyyəti Gürcüstandan kənarda yaşamaq məcburiyyətindədirlər. İkinci xəbər okeanın o tayından, ABŞ-dan gəldi ki, Nyu-Yorkda 15 Gürcüstan əsilli kriminal avtoritet saxlanılıb. Bizdən uzaqdır deyib, əlimizi yelləyə də bilərdik. Amma Gürcüstan hamımızın vətənidir, soğanın bir adı var və bu ləkə hamımıza yapışdığından üstündən keçmək olmur. Üçüncü xəbər rəsmi olmasa da, düz burnumuzun ucunda baş verib, günün günorta çağı kəndlərimizin birində bir neçə oğurluq hadisəsi olub. İnanıram ki, gec-tez oğrular yaxalanacaq. Nədən ki, "oğurluqla, zadın arası qırx gün çəkər" deyiblər. Oğrular və oğruları özlərinin qəhrəmanları zənn edənlər düşünməsinlər ki, onların bağırması ilə doğruların bağrı yarılacaq.**

## BGMİ VƏ GYMD-NİN TƏŞKİLATÇILIĞI, HÜDAYİ VƏQFİNİN MADDİ DƏSTƏYİ İLƏ BÖLGƏLƏRDƏ İFTAR SÜFRƏLƏRİ TƏŞKİL OLUNUR

Gürcüstan Gənclərinə Yardlm və Maariflənditmə Təşkilatı artıq bir neçə ildir ki, Gürcüstanın 20 bölgəsində Müqəddəs Ramazan ayının gəlişi münasibətilə ənənəvi iftar süfrələri təşkil edir. Bu iftar süfrələrinə adətən imkansız ailələrin nümayəndələri dəvət olunur. Həmçinin bu tədbirlərə yerli idarəetmə orqanlarının və ictimaiyyətin nümayəndələri də qatılırlar.

Bütün Gürcüstan Müsəlmanları İdarəsi və Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının təşkilatçılığı və Əziz Mahmud Hüdayi Vəqfinin maddi dəstəyi ilə Qardabani rayonunun Kosalı, Vaxtanqisi, İstisu, Marneuli rayonunun II Kosalı, Sadaxlı, Qasımlı, İlməzli, Hacıisə, Dmanisi rayonunun Hamamlı, Yırğançay kəndlərində, Saqareco rayonunun Qaraçöp mahalında, Bolnisi rayonunun Kəpənəkçi kəndində və Pankisidə belə iftar süfrələri artıq təşkil edilib.

Hələ Ramazan ayının bitməsinə xeyli müddət qalıb və bu xeyriyyə kampaniyası müxtəlif bölgələrdə yenə də davam etdiriləcək. Növbəti iftar süfrələrinin açılması Qardabani şəhərində, Bolnisi rayonunun Geta (Gulaver) kəndində və Zalqa rayonunda gözlənilir.

Bu xeyriyyə kampaniyasına bu ildən daha biri də əlavə olunub.

İmkansız və ehtiyacı olan ailələrə ərzaq yardımı edilməsi yönündə təşkilat öz facebook səhfəsindən əhaliyə müraciət ünvanlayıb. Bir ailənin ərzaq paketi üçün 60 lari, 1 nəfərin iftarı üçün 8 lari nəzərdə tutan yardım kompaniyasına start verilib. Arzulayanların bu xeyriyyə işinə qoşulması könüllüdür.

## MƏCBURİ HƏRBİ XİDMƏTİ GÜRCÜSTAN KONSTİTUSİYASI MÜƏYYƏNLƏŞDİRMƏYƏCƏK



Daha məcburi hərbi xidməti Gürcüstan konstitusiyasi müəyyənləşdirilməyəcək.

Mayın 5-də Gürcüstan parlamentinin sədri İrakli Kobaxidze mətubat konfransında hökumətin və parlamentin çağırış sistemi necə olmalıdır və məcburi xidmət mövcud olacaqmı kimi sualları müyyənləşdirməklə məşğul olduğunu bəyan edib.

Kobaxidze deyib: "Bu, daha konstitusiya səviyyəsində tənzimlənməyəcək. Buna müvafiq olaraq, hökumət və parlament hərbi çağırış sisteminin necə formalaşdırılmasını həll etməlidir".

## MƏKTƏB MÜƏLLİMLƏRİ ÜÇÜN İMTAHANLAR İYUL AYINDA KEÇİRİLƏCƏK

Gürcüstan Milli İmtahanlar və Qiymətləndirmə Mərkəzinin saytında ölkə pedoqoqlarının verəcəkləri imtahanların cədvəli dərc olunub.

Fənlər üzrə, habelə peşəkar qabiliyyət üzrə imtahanları təkcə fəaliyyətdə olan pedaqoqlar deyil, həm də müəllimliyə başlamaq istəyənlər verə biləcəklər.

İlk imtahan iyulun 13-də gürcü dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər), gürcü dili və ədəbiyyatı (I-VI siniflər), təbiətşünaslıq (I-VI siniflər) müəllimləri üçün keçiriləcək.

İyulun 14-də I-VI siniflərin pedaqoqları riyaziyyat üzrə, habelə VII-XII siniflərin gürcü dili və ədəbiyyatı müəllimləri, mülkü təhsil və fizika müəllimləri imtahan verəcəklər.

VII-XII siniflərin pedaqoqları üçün riyaziyyat, eləcə də tarix, biologiya, coğrafiya imtahanları iyulun 20-də keçiriləcək. İyulun 21-də ingilis, rus, alman, fransız dilləri, habelə gürcü dili ikinci dil kimi fənlərindən yazılı imtihan olacaq. Elə həmin gün informasiya və kommunikasiya texnologiyaları üzrə imtahan keçiriləcək.

İngilis, rus, alman, fransız dilləri, gürcü dili ikinci dil kimi, informasiya və kommunikasiya texnologiyaları müəllimləri imtahanın praktiki hissəsini iyulun 22-23-də verəcəklər. Kimya, tətbiqi və təsviri incəsənət, idman və musiqi üzrə imtahanlar iyulun 24-də olacaq.

Xatırladaq ki, keçən il Gürcüstan pedaqoqlarının yalnız 20%-i imtahanlardan keçə bilmişdi.

## TÜRK KLİNİKASI TBİLİSİDƏ ŞÜA TERAPİYA MƏRKƏZİ AÇIB

Tbilisidə müasir şüa terapiya mərkəzi fəaliyyətə başlayıb. Mərkəzdə onkoloji xəstəliklər daha təsirli və günün tələblərinə cavab verən metodlarla müalicə olunacaq.

Mərkəzdə pasiyentlərə radioterapiya və nüvə tibbi sahəsində xidmətlər təklif olunacaq.

Ən yeni tibbi avadanlıqların köməyi ilə mütəxəssislər xərçəngin ilkin mərhələdə diaqnostikasını və yüksək səviyyəli müalicəsini həyata keçirə biləcəklər.

Yeni mərkəz Lisi gölünün yaxınlığında yerləşir. Onun tikintisinə 25 milyon lari sərmayə qoyulub. Klinikada xüsusi hazırlıq keçmiş 30 həkim işlə təmin edilib.

Mərkəzdə tibbi idarətmənin keyfiyyətinə Türkiyənin Liv Hospital Ankara klinikası məsuldur. Yeni tibb müəssisəsində yüksək müalicə standartlarını məhz bu klinikanın mütəxəssisləri tətbiq edirlər.

Şüa terapiya sahəsinə Türkiyənin məşhur şüa mütəxəssisi, professor Merdan Fayda rəhbərlik edir.

Şüa terapiya mərkəzi pasiyentlərə Avropa və Amerika klinikaları səviyyəsində tibbi xidmət göstəriləcəyini bəyan edib. Bundan başqa, bu işdə türk klinikası ilə tərəfdaşlıq da mühüm rol oynayır. Belə ki, türk klinikasının köməyi ilə gürcü həkimlərinin ixtisasını yüksəltmək mümkün olacaq.

# DONALD TRAMP: GÜRCÜSTANIN MÜSTƏQİLLİYİ VƏ DEMOKRATİYASI BÜTÜN DÜNYA ÜÇÜN NÜMUNƏDİR

ABŞ prezidenti Donald Tramp Gürcüstanın baş naziri Georgi Kvirikaşvilini və ölkə əhalisini Müstəqillik Günü münasibətilə təbrik edib.

Gürcüstan mayın 26-da dövlət müstəqilliyinin bərpa olunmasının 99-cu ildönümünü qeyd edib.

Trampın təbrik məktubunu isə Gürcüstan hökumət administrasiyasının mətbuat xidməti iyunun 3-də yayıb.

Məktubda Tramp Gürcüstan və ABŞ tərəfdaşlığının gələcəkdə daha da möhkəmlənəcəyinə əminliyini ifadə edib. ABŞ prezidentinin təbrikində deyilir: "Gürcüstanı və ABŞ-ı etibarlı və fəal tərəfdaşlıq bağlayır, bu barədə biz sizin Vaşinqtona səfəriniz zamanı söhbət etmişik və bu tərəfdaşlıq, mənim dərin inamıma görə, gələcəkdə daha da möhkəmlənəcək".

Tramp sülhməramlı missiyalarda iştirak edərək, beynəlxalq təhlükəsizliyin təmin olunmasına verdiyi töhfəyə görə Gürcüstana təşəkkürünü bildirib.

ABŞ lideri yazır: "Müstəqilliyin bərpasından sonra Gürcüstan demokratik liderə çevrilərək, qlobal təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verir. ABŞ Əfqanıstana verdiyiniz töhfəyə görə minnətdarlığını bildirir, təəssüf ki, bu qurbansız ötüşməyib. Biz Əfqanıstanda, NATO-nun sülhməramlı qüvvələri tərkibində gürcü hərbiçilərinin amerikan və beynəlxalq silahlı qüvvələrlə birlikdə xidmətlərini yüksək qiymətləndiririk. Həmçinin sizin İraqda və Suriyada İŞİD-lə mübarizə məqsədilə yaradılmış koalisiya çərçivəsində tərəfdaşlığınızı qiymətləndiririk".



O, qeyd edib ki, Gürcüstan regionda təhlükəsizliklə bağlı problemlərə və "xarici güclərin təzyiqinə" baxmayaraq, "özünün gələcəyinin müəyyənləşdirilməsi yolunda şüurlu olaraq və israrla durub". Tramp vəd edib ki, ABŞ gələcəkdə də xalqı demokratiyanın xeyrinə seçim edən Gürcüstanın tərəfini saxlayacaq.

Məktubda deyilir: "Biz sizin seçiminizi gələcəkdə də müdafiə edəcəyik, çünki Gürcüstanın müstəqilliyi və demokratiyası bütün dünya üçün nümunədir. Birləşmiş Ştatlar beynəlxalq səviyyədə tanınmış sərhədlər daxilində Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə müdafiə edir".

Gürcüstan və ABŞ 1992-ci ildən siyasi, iqtisadi, ticarət sferalarında, 90-cı illərin sonundan isə müdafiə və təhlükəsizlik sahələrində əməkdaşlıq edir. 2009-cu ilin yanvarında Vaşinqtonda iki ölkənin təhlükəsizlik, müdafiə, ticarət, iqtisadi, mədəni və humanitar sahələrdə əməkdaşlığını nəzərdə tutan strateji tərəfdaşlıq Xartiyası imzalanıb.

Kvirikaşvili mayın 8-də ABŞ-ın vitse-prezidenti Mayk Pensin dəvətilə Vaşinqtonda üçgünlük rəsmi səfərdə olub.

Gürcüstanın baş naziri Donald Tramp və Mayk Penslə görüşüb. Bundan sonra Gürcüstan hökumət başçısının ABŞ-ın dövlət katibi Reks Tillersonla, maliyə naziri Stiven Mnuçin və ticarət naziri Uilbur Rossla, habelə senatorlarla, o cümlədən də ABŞ Senatı Hərbi Komitəsinin sədri Con Makkeynlə görüşü olub.

Bu görüşlərdə tərəflər amerikan-gürcü strateji tərəfdaşlığının çox möhkəm olduğunu qeyd ediblər. Amerika tərəfi Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini, eləcə də Tbilisinin Avropa İttifaqı və NATO ilə inteqrasiyasına yönəlmiş cəhdlərini dəstəkləyib. Bundan əlavə, hər iki tərəfə kəşfiyyat məlumatlarını mübadilə etməyə və terrorizmlə mübarizə sferasında əməkdaşlığı möhkəmləndirməyə imkan verən təhlükəsizlik sahəsində qarşılıqlı fəaliyyətə dair vacib müqavilə imzalanıb.

Hazırladı: Afayət AFİQ

# MARNEULİDƏ GÜRCÜSTAN PARLAMENTİNİN REGİONAL SİYASƏT VƏ ÖZÜNÜİDARƏETMƏ KOMİTƏSİNİN İCLASI KEÇİRİLİB



İyunun 9-da Marneuli Bələdiyyəsinin İcra Hakimiyyətində Gürcüstan Parlamentinin Regional Siyasət və Özünüidarəetmə Komitəsinin iclası keçirilib.

İclası komitənin sədri Qriqol Liluaşvili açaraq, ilk öncə komitə üzvləri və dəvətli qonaqlarla birlikdə "Avtomobil yolları" barədə Gürcüstan qanunvericiliyinə dəyişikliklər edilməsi məsələsini müzakirə edib. Sonra Gürcüstan qanunvericiliyində, daha dəqiq desək "Yerli Özünüidarəetmə Məcəlləsində dəyişikliklər haqqında" və planlaşdırılan digər məsələlər barədə söhbət açılıb.

Komitə iclasında Kvemo Kartlinin majoritar deputatları, birinci müavini ilə birlikdə Kvemo Kartli qubernatoru Qriqol Nemsadze, Kvemo Kartli bələdiyyələrinin rəhbərləri və digər maraqlanan şəxslər iştirak ediblər.

Tədbirdə 2017-ci il dövlət büdcəsi ilə nəzərdə tutulan və planlaşdırılan Kvemo Kartli bölgə və bələdiyyə inkrastruktur layihələrindən, bölgədə mövcud olan problemlərdən, onların həlli yollarından danışılıb.

İclas bitəndən sonra komitə üzvləri və tədbir iştirakçıları yerli sakinlər ilə görüşüblər. Görüş sual-cavab formatında keçirilib. Hər bir vətəndaş qanunda aparılan dəyişiklik barədə sual ünvanlaya və ətraflı məlumat ala bilib.

Regionların İnkşafı və İnfrastruktur Nazirliyinin nümayəndələri 2017-ci il ərzində Kvemo Kartlidə həyata keçirilən infrastruktur layihələrin təqdimatını həyata keçiriblər.

Bələdiyyənin icra başçısı Merab Topçişvili bələdiyyədə 2013-2016-cı illərdə həyata keçirilmiş müxtəlif layihələrdən söz açaraq, bələdiyyənin prioritetləri, tətbiq edilən yeniliklər və gələcək planlardan bəhs edib.

Gələcəkdə Parlamentin Regional Siyasət və Özünüidarəetmə komitəsinin iclasları Gürcüstanın digər bölgələrində də təşkil olunacaq.

Turac İBRAHİMOVA

# GÜRCÜSTANDAN AVROPANIN 13 ÖLKƏSİNƏ BİRBAŞA UÇMAQ MÜMKÜNDÜR



Gürcüstandan 21 istiqamətdə 13 Avropa ölkəsinə birbaşa reyslərlə uçmaq mümkündür. Bu barədə Gürcüstanın baş naziri Georgi Kvirikaşvili Georgian Airways aviaşirkətinin yeni "Tbilisi-London-Tbilisi" reysinin açılışında bəyan edib.

Tbilisi-London-Tbilisi reysləri bazar ertəsi və şənbə günləri olmaqla həftədə iki dəfə həyata keçiriləcək.

Kvirikaşvili deyib: "Gürcüstan istiqamətində birbaşa əlaqələrin imkanlarının genişlənməsi çox sevindiricidir. Keçən il Gürcüstanın yeddi Avropa ölkəsi ilə birbaşa əlaqələri var idi. Bu il artıq 21 istiqamət üzrə 13 Avropa ölkəsinə birbaşa əlaqə var".

Kvirikaşvilinin məlumatına görə, cari ilin ilk beş ayı ərzində aeroportlarda sərnişinlərin sayı 47% artıb.

Baş nazir qeyd edib: "Daha çox turistlər qəbul etmək üçün Gürcüstanın infrastrukturu yaxşılaşdırılır. Mən təkcə aeroportları nəzərdə tutmuram. Yol infrastrukturu, mehmanxanalar şəbəkəsi yaxşılaşdırılır, turist istiqamətləri inkişaf etdirilir".

# AVROPA İTTİFAQINDAN 169 GÜRCÜSTAN VƏTƏNDAŞI DEPORTASİYA OLUNUB

Martın 28-dən mayın 18-dək Avropa İttifaqına üzv olan dövlətlərdən 169 Gürcüstan vətəndaşının deportasiyası həyata keçirilib. Daha 10 nəfər İsveçrədən, 3 nəfər isə Norveçdən çıxarılıb. Bu statistikanı Gürcüstan DİN-in analitik-informasiya departamenti yayıb.

Ən çox Gürcüstan vətəndaşı Almaniyadan (73 nəfər), ən az isə Böyük Britaniya və Finlandiyadan (hərəsindən bir nəfər) çıxarılıb.

Avropa İttifaqının digər ölkələrindən çıxarılanların sayı isə belədir: İspaniyadan 16, Fransadan 12, Beliçka və Yunanıstanın hərəsindən 11, İsveçdən 10, İtaliya və Polşanın hərəsindən 9, Avstriya və Litvanın hərəsindən 6, Danimarka və Portuqaliyanın hərəsindən 5, Hollandiyadan 4 nəfər.

Xatırladaq ki, 28 mart 2017-ci il tarixindən Gürcüstan vətəndaşları viza rejiminin sadələşdirilməsi nəticəsində Avropa İttifaqı ölkələrinin ərazisində vizasız hərəkət etmək rejimindən yararlanırlar.

# ABŞ GÜRCÜSTANA NÜVƏ TƏHLÜKƏLƏRİNİ AŞKARLAMAQ ÜÇÜN XÜSUSİ AVADANLIQLAR BAĞIŞLAYIB

ABŞ Gürcüstan DİN-ə kimyəvi, bioloji, radioaktiv və nüvə təhlükəsini aşkarlamaq üçün xüsusi avadanlıqlar bağışlayıb. Məlumat DİN-in saytında verilib.

Avadanlıqlar Gürcüstan DİN-in xüsusi tapşırıqlar üzrə departamentinin direktoru Mindia Lortkipanidze və ABŞ-ın energetika departamentinin nüvə qaçaqmalçılığının aşkarlanması və qarşısının alınması üzrə şöbəsinin regional məsləhətçisi Sandro Volskinin görüşü çərçivəsində təqdim olunub.

Görüşün gedişində bu cür hadisələr nəticəsində təhlükənin aşkarlanması və zərərin minimallaşdırılması üçün lazım gələn müxtəlif avadanlıqlar nümayiş etdirilib.

Tərəflər kimyəvi, bioloji, radioaktiv və nüvə təhlükəsinin azaldılması sahəsində əməkdaşlığın dərinləşdirilməsi planlarını da müzakirə ediblər.



## QƏTƏR HADİSƏLƏRİNİN GİZLİ MƏQAMLARI

Sahib MUSTAFA
*sahib1975.sm@gmail.com*

**Yaxın Şərq qəflətən şok bir xəbərlə oyandı – Qətər terroru dəstəkləyən ölkələrdəndir və bu ölkə ilə bütün diplomatik münasibətlər dayandırılmalıdır. Başda Səudiyyə Ərəbistanı olmaqla regionun bütün ərəb ölkələri Qətəri "İslam qardaşları" və digər terror təşkilatlarına maliyə yardımı etməkdə suçlayaraq, Doha ilə bütün sahələrdə əlaqələrinə son verir. Əslində hadisələrin inkişafına diqqətlə nəzər yetirsək, sifarişin haradan və nə məqsədlə gəldiyini çözmək o qədər də çətin deyil. Çünki, hadisələrin bu cür dramatik məcrada inkişaf etməsi üçün kifayət qədər zaman tələb olunurdu.**

Regionda baş verən böhranın ABŞ prezidenti Trampın Səudiyyə Ərəbistanı və İsrailə səfərindən dərhal sonra ortaya çıxması düşündürücüdür. Elə məsələyə aydınlıq gətirmək üçün də araşdırmanı buradan başlamaq lazımdır.

Rusiyanı çökdürmək üçün ABŞ və onun müttəfiqlərinin böyük və kiçik planları mövcuddur. Bu məqsədlərə çatmaq üçün ilk növbədə Moskvanın müttəfiqlərini neytrallaşdırmaq və dünyada enerji qaynaqları üzərində nəzarəti ələ keçirmək gərəkdir. Məsələnin məntiqi davamı isə Rusiyanı dünya enerji bazarından sıxışdırıb çıxarmaq və Moskvanı neft və qaz satışından əldə edəcəyi xarici gəlirlərdən məhrum etməkdir. Ağ Evin əsl niyyəti burada gizlənməkdədir. İran kimi zəngin enerji qaynaqları olan bir ölkəni ram edərək, Rusiyanı təkləmək məqsədlərin görünməyən tərəfidir. Qətər böhranının kökündə İranın olması şübhə yeri qoymayır. Belə ki, Vaşinqtonun Yaxın Şərqin bütün ərəb ölkələrini İrana qarşı vahid cəbhədə birləşdirməsi planları Qətərdə çat verdi. Qətərin ərəb ölkəsi olmasına baxmayaraq, İranla yüksək səviyyədə münasibətləri mövcuddur. Belə bir vəziyyət Ağ Evin maraqları ilə üst-üstə düşmür. Bundan əlavə, bu ölkənin zəngin qaz ehtiyatları baxımından yalnız Rusiya və İrandan geri qalması önəmli faktordur. ABŞ prezidenti Trampın: "Ekstremist terror təşkilatlarını maliyə qaynaqlarından məhrum etmək gərəkdir, terrora və Qətərə qarşı hərəkət etməyin tam zamanıdır" – deməsi, Qətərin hazırki mövqeyinin Vaşinqtonun planlarına zidd olması anlamına gəlir. Dünyada ən güclü kəşfiyyat sisteminə malik olan ABŞ məgər indiyədək Qətərin terrorçulara dəstək verdiyini bilmirdimi? Sadəcə olaraq, ABŞ Səudiyyə Ərəbistanı vasitəsi ilə Qətərin də İrana qarşı cəbhəyə qoşulacağına ümid edirdi. Lakin, hadisələr Vaşinqtonun gözləmədiyi istiqamətdə irəlilədi və bütün vasitələr səfərbər edildi, Qətər qəflətən terroru dəstəkləyən ölkə statusuna düşdü. Düşündürücüdür, elə deyilmi? Acınacaqlı fakt ondan ibarətdir ki, Vaşinqton ərəb-müsəlman dünyasını bir-biri ilə qarşı-qarşıya qoyur, regionda yeni münaqişə ocağının yaranmasına zəmin hazırlayır.

Qətərə regionun bütün ərəb ölkələri arxa çevirsələr də, onu dəstəkləyən dövlətlərin varlığı böhranın dərinləşəcəyinə işarədir. Türkiyə və Pakistanın Dohaya tam dəstək verməsi Qərbi tərs köşəyə yatırmaqla bərabər, ərəb dünyası ilə olan münasibətlərin gərginləşəcəyinə də şübhə yeri qoymur. Artıq Türkiyə parlamenti Qətərə hərbi qoşun yeritmək haqqında qərar qəbul edib. Ankaranın ardınca Pakistanın da anoloji addım atacağı artıq bəllidir. Terror olayları ilə sarsılan İran hətta Qətərə ilk humanitar yardımlar da göndərib. Qətər böhranı məsələsində Rusiyanın tutacağı mövqe barəsində baş sındırmağa dəyməz. Təbii ki, Moskva Dohaya hər cür dəstək verəcəkdir. Cünki, böhranın digər tərəfində Kremlə əks olan Vaşinqton yer alıb. Moskva yaxşı anlayır ki, Qətər, daha sonra İran məsələsində Rusiyanın azacıq büdrəməsi onun sonunu daha da tezləşdirər.

**Yaxın Şərqdə çevrilən oyunlar təkcə bölgə üçün yox, eyni zamanda dünyanın qlobal təhlükəsizliyini təhdid edir. Əks qütblərdə cəmləşmiş dövlətlərin siyasi kartları bitmək üzərə olduqda tərəflərdən birinin "va-bank " oynayacağı şübhə doğurmur. Kənar qüvvələrin diqtəsi ilə islam ölkələrinin bir-birinə qənim kəsilməsi ayrıca utanc verir. İmperializmin əlində alətə çevrilmək qəbul edilməzdir. Çünki, işlədilən alət tez sıradan çıxır.**

## ANTONİO QUTERREŞ BMT-DƏ İSLAHATLAR APARILMASININ VACİBLİYİNİ VURĞULAYIB

BMT-nin baş katibi Antonio Quterreş 21-ci Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunun açılış mərasimində çıxış edib.

Sankt-Peterburq İqtisadi Forumunun dünya ictimaiyyətinin və dünya iqtisadiyyatının problemlərini müzakirə etmək üçün vacib məkan olduğunu bildirən Qutteregş qeyd edib ki, BMT-nin, o cümlədən təhlükəsizlik sahəsində daha səmərəli fəaliyyət göstərməsi üçün təşkilatda islahatlar aparılmasına ehtiyac var. O, əlavə edib ki, hazırda beynəlxalq aləmdə ciddi fikir ayrılığı və etimad çatışmazlığı var.

"Texniki tərəqqi və dünya iqtisadiyyatının artımı dünya əhalisinin mütləq yoxsulluq göstəricisinin azalmasına gətirib çıxarıb. Lakin bu, həm də insanlar arasında qeyri-bərabərliyin həddən artıq böyüməsinə səbəb olub. Bu gün dünyanın ən zəngin 8 insanının var-dövləti planetin yerdə qalan əhalisinin kapitalı ilə demək olar, bərabərdir" – BMT baş katibi bildirib.

## ASTANADA "EKSPO 2017" BEYNƏLXALQ SƏRGİSİNİN AÇILIŞI OLUB



Qazaxıstanın paytaxtı Astanada iyunun 9-da əsas mövzusu "Gələcəyin enerjisi" olan "Ekspo 2017" Beynəlxalq sərgisinin rəsmi açılışı olub. Sərgi iyunun 10-dan gələnləri qəbul etməyə başlayıb.

"Ekspo 2017"nin açılış mərasimində iştirak etmək üçün 17 ölkənin lideri Qazaxıstanın paytaxtına gəlib. Bütün rəsmi qonaqları Qazaxıstan prezidenti Nursultan Nazarbayev şəxsən qarşılayıb.

Beynəlxalq sərginin nəzdində müxtəlif ölkələrin 1200 nümayəndəsinin akkreditə olunduğu media mərkəzi fəaliyyət göstərir.

Sərgidə 115-dək ölkənin və 22 beynəlxalq təşkilatın nümayəndələri iştirak edirlər. "Ekspo 2017"də müxtəlif ölkələrdə hazırlanmış alternativ yeniliklər təqdim edilir. Hər bir iştirakçı dövlət öz paviliyonu ilə təmsil olunur. Onların arasında Gürcüstan da var və sərgiyə gələnlərə ölkənin enerji potensialı barədə məlumat verilir.

"Ekspo 2017" Astanada üç ay davam edəcək və 2017-ci il sentyabrın 10-da başa çatacaq.

## ƏRƏB ŞAHZADƏSİ YOXSULLARA 32 MİLYARD DOLLAR İANƏ VERİR

Dünya bütün tarixi ərzində bu böyüklükdə ianə görməyib. Səudiyyə Ərəbistanı şahzadəsi əl-Valid bin Talal bin Əbdüləziz əl-Saud özünün 32 milyard dollarlıq varidatını xeyriyyəçilik məqsədilə bağışlayıb.

Forbes nəşrinin qiymətləndirməsinə görə, əl-Valid Səudiyyə Ərəbistanında ən varlı adamdır. O, özünün bütün sərvətini xiyriyyə işlərinə bağışlamaq qərarına gəlib. Ərəb xeyriyyəçi fikrini belə izah edib: "Bu, mənim bəşəriyyət qarşısında borcumdur".

Onun sözlərinə görə, göstərilən məbləğ plana əsasən, yaxın bir neçə il ərzində alanlar arasında bölüşdürüləcək. Pulların xərclənəcəyi əsas istiqamətlər bəllidir. Bu məbləğ təbii fəlakətlərin nəticələri ilə mübarizəyə, məktəb və uşaq evlərinin tikintisinə, müxtəlif xəstəliklərlə mübarizəyə, qadınlara yardıma, mədəni ziddiyyətlərin həll olunmasına və dünyanın müxtəlif rayonlarında həyatın keyfiyyətinin yüksəldilməsinə xərclənəcək.

Şahzadə deyib: "Mənim bütün sərvətim xeyir işlərə xərclənəcək. Artıq mənim qazancımın böyük hissəsi buna sərf olunur". Bu, indiyədək dünyada insanın etdiyi ən böyük xeyriyyəçilikdir.

## MÜƏMMƏR QƏDDAFİNİN KİÇİK OĞLU HƏBSDƏN AZAD EDİLDİ




Liviyanın "Əbu Bəkr əs-Siddiq" qruplaşması Müəmmər Qəddafinin kiçik oğlu Seyf əl-İslamın Zintan şəhər həbsxanasından azadlığa buraxıldığı barədə bəyanat verib. Zintana nəzarət edən qruplaşmanın Facebookda yerləşdirilən məlumatını Bi-Bi-Sinin rus xidməti yayıb.

Seyf əl-İslamın Liviya parlamentinin elan etdiyi amnistiya əsasında azad edildiyi bildirilir. Seyf əl-İslamın vətəndaş müharibəsinin davam etdiyi Liviyada milli barışıq prosesində iştirak edəcəyi gözlənilir.

Xatırladaq ki, 2015-ci ilin iyulunda Seyf əl-İslama ölüm cəzası verilmişdi. Onu 2011-ci il Liviya inqilabının gedişində hərbi cinayət törətməkdə təqsirləndirirdilər. Qeyd edək ki, həmin dövrdə uzun illər ölkəyə rəhbərlik etmiş Müəmmər Qəddafi hakimiyyətdən salınaraq, öldürülmüşdü.

Seyf əl-İslam atasına sadiq şəxslərlə birlikdə etirazların yatırılmasında iştirak etmişdi. Bu iş üzrə 30 nəfər günahlandırılırdı.

Seyf əl-İslam 2011-ci ildən Zintan həbsxanasında saxlanılırdı.

## ÜÇ ÖLKƏ AVROPA BİRLİYİNDƏN ÇIXARILA BİLƏR

Avropa Birliyi qanunun tələblərinə rəğmən mühacir qəbul etməyən Çexiya, Macarıstan və Polşa haqqında hüquqi prosesə start verib.

Avrokomissiyanın açıqlamasında Çexiya, Macarıstan və Polşaya dəfələrlə bu mövzuda müraciət edildiyi xatırladılıb. Lakin bu ölkələr çağırış və müraciətlərə etinasız yanaşaraq, Avropa Birliyi Şurasının qərarlarından irəli gələn öhdəliklərə məhəl qoymayıblar.

Verilən açıqlamada bildirilir: "Bununla bağlı Avropa Komissiyası bu üç ölkə haqqında öhdəliklərin yerinə yetirilməməsi mövzusunda hüquqi prosesin başlanmasına qərar verib".

Bu qərarın sözügedən ölkələrin Birlikdən çıxarılmasına səbəb olub-olmayacağı prosesin gedişində bəlli olacaq.

## GÜRCÜSTANDA MƏHBUSLAR KATEQORİYALAR ÜZRƏ KAMERALARA YERLƏŞDİRİLƏCƏK

Gürcüstanın penitensiar sistemində məhbusların cinayət kateqoriyasından asılı olaraq kameralara yerləşdirilməsi prinsipi tətbiq olunur. Gürcüstanın Probasiya və Cəzaların İcrası Nazirliyinin məlumatına görə, bu barədə probasiya və cəzaların icrası naziri Kaxa Kaxişvili müvafiq əmr imzalayıb.

Tətbiq olunan dəyişiklik əsasında qanun pozuntusuna görə cəza alan çinovniklər, müxtəlif növ iqtisadi, o cümlədən də istehsalın təşkili, maliyyə fəaliyyəti sahəsində cinayət törətmiş sahibkarlar və digər şəxslər başqa növ cinayətlərə görə məhkum olunmuş şəxslərdən ayrı saxlanacaqlar.

Bu qayda kiber cinayət törətmiş şəxslərə də şamil olunacaq.

Bir qədər əvvəl nazir qapalı tipli penitensiar müəssisələrdə siqaret çəkən və çəkməyən məhbusların müxtəlif kameralarda yerləşdirilməsi barədə əmr də vermişdi.

Hər iki dəyişiklik Kaxi Kaxişvilinin rəhbərliyi altında Probasiya və Cəzaların İcrası Nazirliyinin penitensiar sistemdə həyata keçirdiyi islahatların tərkib hissəsidir.

## HƏBSXANALARDA SİQARET ÇƏKƏNLƏR VƏ ÇƏKMƏYƏNLƏR MÜXTƏLİF KAMERALARDA YAŞAYACAQLAR



Qapalı tipli penitensiar müəssisələrdə siqaret çəkməyən və tütündən istifadə edən müttəhimlər/məhkumlar ayrı-ayrı kameralarda yerləşdiriləcəklər. Bu barədə Gürcüstanın Probasiya və Cəzaların İcrası Nazirliyi məlumat yayıb.

Bu məsələ probasiya və cəzaların icrası naziri Kaxi Kaxişvilinin əmri ilə penitensiar müəssisələrin nizamnaməsində dəyişikliyi nəzərdə tutur və bu dəyişikliklər artıq qüvvəyə minib.

Həyata keçirilən dəyişiklikdən məqsəd tütünün zərərli təsirinin qarşısını almaqdır.

## GÜRCÜSTAN ƏHALİSİ QAZANCININ 44%-İNİ QİDALANMAYA XƏRCLƏYİR

Dünya Bankının təsnifatına əsasən, Gürcüstan gəliri orta səviyyədən yuxarı olan ölkələr arasındadır.

Azərbaycan, Türkiyə, Rusiya, Çernoqoriya, Argentina, Makedoniya və digər ölkələr də bu qrupa daxildir. DB-nın təsnifatına əsasən, Ermənistan gəliri orta səviyyədən aşağı olan ölkələr sırasındadır.

Bununla belə Gürcüstanın bir çox göstəriciləri onu Gürcüstandan daha yoxsul ölkələrə yaxınlaşdırır. Bunu qidalanma xərclərinin payı da təsdiqləyir. Gürcüstan Milli Statistika Xidmətinin hesablamalarına görə, əhali öz gəlirlərinin 44%-ini qidalanmaya xərcləyir.

Müqayisə üçün deyək ki, inkişaf etmiş ölkələrdə əhali qidalanmaya öz gəlirlərinin çox cüzi hissəsini xərcləyir. Məsələn, ümumi gəlirlərdən qidalanma xərclərinə ABŞ-da 6,4%, Böyük Britaniyada 8,2%, İsveçrədə 8,7%, Kanadada 9,1%, Avstraliyada 9,8%, Avstriyada 9,9% xərclənir.

Qidalanma üçün xərclərin böyük olması kasıb ölkələrdə normal haldır. Məsələn, bu xərclər Kamerunda 45%, Keniyada 46%, Nigerdə 56% təşkil edir.

Dünya Bankının 2016-cı ilə dair hesabatına əsasən, Gürcüstan əhalisinin 69%-i yoxsulluq səviyyəsindədir.

Araşdırma 2010-2014-cü illəri əhatə edir. Dünya Bankının təsnifatına əsasən, Gürcüstan əhalisinin 32%-i son dərəcə yoxsulluq həddində, 37%-i orta yoxsulluq həddində, 24%-i yoxsulluğa yaxın səviyyədə yaşayır. Beləliklə, əhalinin yalnız 7%-i bir gündə adambaşına 10 dollardan çox xərcləyir.

Lakin Dünya Bankının məlumatına görə, araşdırma dövründə Gürcüstanın son dərəcə yoxsul əhalisinin sayında azalma müşahidə edilib, hazırda bu kateqoriya əhalinin 15%-ini təşkil edir.

Dünya Bankının təsnifatına görə, əhalinin özünə gündə 2,5 dollardan çox xərcləməyən təbəqəsi son dərəcə yoxsul, gündə 5 dollardan artıq pul xərcləməyən təbəqəsi isə orta səviyyəli yoxsul hesab olunur.

## GÜRCÜSTANIN HƏR ÜÇ SAKİNİNDƏN BİRİNİN AVTOMOBİLİ VAR



Dörd milyon nəfərə yaxın əhalisi olan Gürcüstan avtomobillərin sayına görə, yüksək göstəriciyə malikdir. Ölkə əhalisi arasında ən populyar markalar Mercedes Benz, Ford və Opeldir. Ölkə vətəndaşlarının bir milyonundan çoxu avtomobil sahibidir və bu göstərici daim artmaqdadır.

Ölkədə Avropa islahatlarının həyata keçirilməsinə başlanılması ilə əhali arasında həyat səviyyəsi yüksəldi, bununla birlikdə isə avtomobil sahiblərinin sayı da artdı. Hal-hazırda hər üçüncü Gürcüstan vətəndaşı maşın sahibidir. Lakin bu nəqliyyat vasitələrinin yarıdan çoxu 15-20 il əvvəlin buraxılışıdır.

Ən çox avtomobil paytaxtda qeydiyyatdadır. Tbilisinin küçələrində daim 500 minə yaxın nəqliyyat vasitəsi hərəkət edir. Ətraf mühitə zərərin təsirini azaltmaq üçün hökumət ölkəyə köhnəlmiş maşınların gətirilməsini məhdudlaşdırdı və onların idxal aksizlərini yüksəltdi. Bundan əlavə, elektrokarların və hibrid maşınların vergisi 60% azaldıldı.

## GÜNAHLARDAN ARINMANIN YOLU TÖVBƏDƏN KEÇİR



Hacı BƏKİROĞLU
*kafkasli@mail.ru*

**İnsan cismən yaradılmamışdan öncə, ruhən var oldu. Bu varoluş zamanında rəbbinə "Sən mənim Rəbbimsən, mən də sənin qulunam" deyə söz verdi. Bu sözlərin içində həm də ona qulluq edərək, ibadətlə məşğul olacağını bildirdi. Ancaq dünya aləminə gəldikdən sonra insanoğlu Rəbbinə verdiyi sözünü unutdu.**

İnsan yaxşı və pis, xeyr və şər, savab və günah olan şeyləri edə biləcək qabiliyyətdə yaradılmışdır. Günahsız olaraq doğulan insan, yetkinlik çağından sonra nəfsinə və şeytana uyaraq günah işləməyə başlayır. Beləliklə, Allahın qoruması altında olan Peyğəmbərlərdən başqa, bütün insanların az-çox günahı vardır. Peyğəmbərimiz (s.ə.s.) "Adəmoğullarının hamısı günahkardır"(İbn-i Mace, Zühd, 30. No: 4251, .II . 1420.) buyuramaqla bu gerçəyi ifadə etmişdir.

Elə bu səbəblə də unutqanlıq mənasını verən nisyan kəliməsinindən gələn insan adıyla adlandırıldı. Ancaq Uca Yaradan bunları öncədən bildiyi üçün insana geri qayıtması üçün imkanlar tanıdı. Tövbə və istiğfar qapısını daim açıq tutdu. Çünki mərhəmət sahibi olan Allah insanı məxluqların ən şərəflisi olaraq yaratdı.

Tövbə, günah işləyən insanın qurtuluşu və Allaha sığınma qapısıdır. Bu qapıya möhtac olmayan heç bir insan yoxdur.

"Əgər siz günah işləməmiş olsaydınız Allah sizi yox edər, başqa bir qövm yaradar, onlar günah işləyər, günahlarının bağışlanmasını Allahdan istəyərlər, Allah da onları bağışlayar" mənasındakı hədis bu gerçəyə işarə etməkdədir.

Qurani-Kərimdə və bir çox hədisi-şərifdə tövbə etmək əmr edilməkdədir:

"Ey möminlər! Hamınız Allaha tövbə edin ki, qurtuluşa çatasınız" (Nur, 31).

"Kim tövbə etməzsə məhz zalımlar onlardır" (Hucurat, 11)

"Ey insanlar! Allaha tövbə edib, Ondan əfv diləyin. Mən də Ona gündə yüz dəfə tövbə edirəm."(Müslim, Zikr, 42. 12. IV, 2076.)

Tövbə, etdiyi günahlardan həqiqi mənada peşman olaraq Allahdan əfv və bağışlanma diləməkdir. Allah səbrlidir, qullarını son nəfəslərinə qədər gözləyir, tövbə etmələri üçün şəraitlər yaradır. Tövbə etmənin zamanı və məkanı yoxdur. Yetər ki, insan cani-dildən peşmanlığını Rəbbinə ərz etsin. Elə gözəl bir zaman diliminin içindəyik ki, etdiyimiz heç bir dua və istək geri çevrilməz. Yetər ki, biz istəməyi bacaraq. Qurani-Kərimin nazil olduğu, içində min aydan daha xeyirli bir qədr gecəsi olan mübarək Ramazan ayındayıq. Bu ay tövbə və istiğfarların daha tez qəbul olunacağı bir aydır. Sahurlarıyla, iftarlarıyla, təravih namazlarıyla həyatımızı gözəlləşdirək, rəbbimizə sözünü verdiyimiz ibadətlərdən biri olan Oruc ibadətini yerinə gətirək, gecələrini dua və istiğfarla əhya edək.

Gəlin gecikmədən günahlarımızdan tövbə edək. Yuxarıda da qeyd etdiyimiz kimi, Allaha ən yaxın olan bəndə ondan bağışlanma istəyən bəndədir. Çünki tövbə edən insan heç günah işləməmiş insan kimidir.

Bir şeyi də unutmayaq ki, uca Allah Qurani-Kərimdə "Biz insanı ən üstün şəkildə yaratdıq. Sonra onu aşağıların aşağısı halına saldıq" deyə buyurur. Bizlər də nəfsimizin və şeytanın əsarətindən qurtularaq, o şərəfli məqamı özümüzə qaytarmalıyıq. Qurtuluş yolu isə ancaq tövbə və istiğfardır.

**Uca Allah bizləri ona haqqıyla qulluq edən, doğru yoldan ayrılmayan və günahlarını dərk edərək tövbə edən qullarından etsin!**

# CƏMİYYƏTİMİZİN MİLLİ DƏYƏRLƏRİ – ƏT, QIZIL VƏ PUL

***Müqqədəs ramazan ayı münasibəti ilə bütün müsəlmanları təbrik edirəm. Allah dualarınızı qəbul etsin.***

Xeyli aradan sonra bir mövzu barəsində öz fikirlərimi sizinlə bölüşmək istəyirəm. Mövzuya keçməzdən əvvəl yazımla bağlı bir-iki məsələyə toxunacağam. Yaxın bildiyim insanlar tərəfindən mənim yazılarım ilə bağlı qiymətləndirmələr gəlir. Onlardan biri də niyə bu qədər sadə və primitiv dildə yazmağımla bağlıdır. Əslində onları qınamıram, çünki onlar əksəriyyət halda ya kiminsə maraqlarna qulluq edən, ya da real hadisələrlə heç bir əlaqəsi olmayan mürəkkəb sözlərdən ibarət internet mənbəli məqalələr oxumağa öyrəşiblər. Eynilə kitablarda yazılan və uşaqlıqdan bizə öyrədilən nağıllar kimi. Əslində yazdığım və primitiv görünən mövzular cəmiyyətimiz üçün aktual və insanların gündəlik davranışında verdikləri qərarlara birbaşa təsir edən mövzulardır.

İkinci məsələ yazılarıma ara verməyimin bəzi mövzulara dair sərt yazılarımdan dolayı mənə olan basqılarla əlaqələndirilməsidir. Bildirmək istəyirəm ki, mənim peşəm məqalə yazmaq deyil. Sadəcə, könüllü olaraq bu işlə əsas işimdən vaxt tapdıqca məşğul oluram. Məsələnin ikinci tərəfinə gəldikdə isə bəzi problemli məsələləri öz vicdanım və dövlət tərəfindən müəyyən edilmiş çərçivə daxilində həll etməyə çalışıram və işin geridə qalan hissəsini buna hüquqi səlahiyyətləri çatan insanların vicdanlarına buraxıram.

Milli dəyərlərimizi başqa başlıq altında müzakirə etməyi daha çox istərdim. Amma çox təəssüf ki, o başlıq heç vaxt olmayacaq. Əslində siyasi gedişə və mənfəətə hesablanmış yazı yazan biri olsaydım bu gün tamam başqa yazı oxuyardınız, amma buna ehtiyacım olmadığını düşünürəm. Bir cəmiyyət üçün milli dəyərlərin nədən ibarət olduğunu bilmək üçün onun mərasimlərini araşdırmaq kifayətdir. Son baş verən hadisələr də bir daha sübut edir ki, bir cəmiyyət kimi bizim üçün mühüm olan dəyərlər əslində mövzunun başlığında sadaladıqlarımdır.

Yas mərasimləri və orada baş verən son hadisələr. Ola bilsin deyəcəksiz ki, yenə yasla başladıq. Amma xatırladım ki, " Şər deməsən, xeyir gəlməz " atalar sözü ilə böyüyən cəmiyyət olduğmuz üçün mən də mövzuya şər işlərlə başlayıram. Bunun kimi, əslində məntiqə sığmayan, sadəcə insanların qulağına xoş gələn deyimlərimiz çoxdu, bu, ayrıca mövzudur.

Əsas məsələyə keçməli olsaq, son hadisələr yenə də rəhmətə gedənlərimizə "ət" ilə dəyər verdiymizi göstərdi. Bu mənim şəxsi fikrimdir, amma zənnimcə, düz fikirdəyəm. Ailədə birinin rəhmətə getməsindən sonra 1-2 saatlıq emosianal təbii mərhələni saymasaq, qalan hallarda ev yiyəsinin üzündəki qəmginlik, əksər halarda "ət" və "ölüsünə dəyər" sınağından necə keçməsi ilə bağlıdır. Artıq hesablamalar aparılır, sizi inandırım ki, ev yiyəsinin xərc və pul analizini bəlkə də dünyanın aparıcı şirkətlərinin layihə menecerləri edə bilməzdər.

Son zamanlar insanlar və din xadimləri tərəfindən yas mərasimlərinin sadələşdirilməsi halları insanda qəribə bir düşüncə yaradır ki, nə oldu bü günə qədər iki toplayaq ikinin dörd etdiyini bilən insanlar birdən birə dedilər, yox, indiyə qədər səhv hesablayırdıq, sən demə, 2+2=5 edirmiş. Çoxlarınız deyə bilərsiniz ki, nə olsun, Nyutonun da başına alma düşənə kimi cazibə qüvvəsi haqqında qanun yox idi. Bunlara da nəsə oldu yəqin? Amma kecirilməsi məntiqsiz olan mərasimin aradan götürülməsinin də, məntiqsiz səbəbləri var. Mən səbəbini deyim: dünya neft birjasında neftin dəyərini müəyyənləşdirən ərəblər Borçalıda da öz sözlərini dedilər, "ət" bazarına girməklə ətin qiymətini 50% artırdılar. Bu hadisə insanları belə bir addım atmağa vadar etdi. Avropa və bütün dünya neftin baha olmasından irəli gələrək günəş enerjisinə keçdiyi kimi, artıq insanların ölülərini ətlə dəyərləndirməyə gücləri yetmədi və keçdilər başqa üsullara. İşin qəribə bir yanı da var ki, yağışı özünə fürsət bilən bəzi göbələklər özünü göstərməyə başladılar. Əslində bir az sevindirici oldu, amma burada da bir problem cıxdı, tap görüm bu köbələklərin hansı yeyiləsi, hansı zəhərlidir.

Bax, görürsüz şər dedik, xeyir gəldi. Keçirik toylarımıza, toy birjasının dəyər indeksinə – qızıla. Burda sözün hər mənasında "Qız qızıla dönüb". Bu mövzuda artıq insanlarımızın rolu dəyişir. Öncəki mövzuda əgər onları layihə menecerləri ilə müqayisə etdiksə, artıq burda dunyanın aparıcı zinnət ekspertləri ilə rəqabət aparacaq valideyinlərimiz var. Övladının ailə qurması mövzusu ilə məşğul olan valideyinlərimizin beyinlərinin işləmə mexanizmini riyazi düstur ilə canlandırsaq, bu şəkli alarıq: qızıl + cehiz = xoşbəxtlik. Elçi gedən ananın əsas başucalığı layiqli övlad əvəzinə, toyda taxacağı qızılla dəyərləndirilir. Qızını gəlin köçürən ananı isə qızının tərbiyəsi yox, ona verəcəyi cehiz maraqlandırır. Toy qızılını və ya cehizini kreditlə alan valideyn, elə onun dəyərindən aşağı lombarda qoyub kredit ödəyən ailənin təməlini atır.

Pul isə əslində bütün bu dəyərləri özündə cəmləyən insanlıq ölçüsü kimi qalır.

Bəlkə də bunlar Sovet İtifaqı dağıldıqdan sonra, bizim dillə desək, evdə torbalarla pulu yanan insanların acgözlüyüdür. Bəlkə də Sovet rejimi bizə mahiyyətini belə anlamadan 1mayı meşədə quzu yeyərək keçirən və bu kimi başqa hərəkətləri icra edən bir cəmiyyət buraxdı, verdiyi bir ovuc buğda ilə insanı insan edən düşüncə qabiliyyətimizi bizlərdən aldı. Bu problemlərdən cıxış yolu axtaran cəmiyyəti isə yarı yolda müasir düşüncə azadlığı yaxaladı.

***Sonda fikrimi bir atalar məsəli ilə tamamlamaq istəyirəm: "Ayağını yorğanına görə uzat". Problem nə ayaqda, nə də yorğandadır. Sadəcə ayağı yorğandan eşiyə çıxaran düşüncələrdədir.***

Elnur XƏMMƏDOV

## DÖVLƏT AUDİT XİDMƏTİ TƏLƏBƏLƏRİN MÜHAZİRƏLƏRDƏ İŞTİRAKININ ZƏİFLİYİNİ AŞKARLAYIB

Dövlət Audit Xidmətinin 2016-cı il üzrə hesabatına əsasən, tələbələrin mühazirələrdə/seminarlarda iştirakının təhlili göstərib ki, mühazirə və seminarların müşahidə edildiyi günlərdə ümumi davamiyyət göstəricisi 15% təşkil edib.

Hesabatda deyilir ki, Audit Xidməti audit üçün seçilmiş üç təhsil müəssisəsində – İvane Cavaxişvili adına Tbilisi Dövlət Universiteti, İliya Dövlət Universiteti və Gürcüstan Texniki Universitetində bakalavr dərəcəsi almış məzunların akademik davamiyyət göstəricilərini araşdırıb. Davamiyyətin təhlili zamanı bu məzunların 64%-inin akademik davamiyyət göstəricilərinin orta səviyyədən aşağı olduğunu aşkarlanıb.

Audit qrupu 2010-ci ildə Vahid Milli İmtahanlarda yüksək bal toplayaraq, 50% və ya daha çox dövlət təhsil qrantı almış və 2014-cü ildə ali təhsil müəssisəsini bitirmiş məzunları seçib. Bu məlumatların təhlili belə məzunların 40%-inin ali təhsil müəssisəsini orta səviyyədən aşağı akademik göstərici ilə bitirdiyini müəyyənləşdirib.

## GÜRCÜSTANIN ƏN YAXŞI MÜƏLLİMİ ADINA İDDİAÇILARIN QEYDİYYATI KEÇİRİLİR

Müəllimlərin Peşəkar İnkişafı Milli Mərkəzinin məlumatında bildirilir ki, milli mükafat almağı və ilin ən yaxşı müəllimi olmağı arzulayan bütün Gürcüstan pedaqoqları iyulun 14-dək onlayn qeydiyyatdan keçməlidirlər.

Gürcüstanda ilk dəfə ölkənin ən dəyərli müəllimi aşkarlanacaq və "Milli Müəllim Mükafatı" veriləcək. Bu isə əsas mükafatı 1 milyon dollar olan müəllimlərin beynəlxalq müsabiqəsində iştirak etməyə imkan verəcək.

"Milli Müəllim Mükafatı" genişmiqyaslı "Dünya Müəllim Mükafatı" kampaniyasının tərkib hissəsidir. Bu mükafatı hər il Varkey GEMS Foundation fondu təqdim edir.

Qeydiyyatdan sonra müsabiqə iştirakçılarının üç mərhələdə seçimi keçiriləcək. İddiaçıları 17 nəfərdən ibarət nüfuzlu münsiflər seçəcəklər. Münsiflər təhsil sahəsi üzrə mütəxəssislərdən, alimlərdən, pedaqoqlardan və KİV nümayəndələrindən ibarətdir.

Müsabiqənin birinci mərhələsində müracətlərin texniki yoxlaması keçiriləcək. İkinci mərhələdə on ən yaxşı iştirakçı aşkarlanacaq. Sentyabrın 20-də keçiriləcək üçüncü mərhələdə isə beş finalçı bəlli olacaq.

"Milli Müəllim Mükafatı"nın ilk sahibi oktyabrın 5-də Ümumdünya Müəllimlər Günündə müəyyən ediləcək. 10 min larilik prizi ən yaxşı pedaqoqa Badri Patarakatsişvilinin dul xanımı İnna Qudavadze-Patarakatsişvili təqdim edəcək.

Xatırladaq ki, may ayında Gürcüstanın Təhsil və Elm Nazirliyi, "Gürcüstan – hamı üçün təhsil" koalisiyası və Müəllimlərin Peşəkar İnkişafı Milli Mərkəzi illik "Milli Müəllimi Mükafatı"nın təsis edilməsini nəzərdə tutan memorandum imzalamışdılar.

## GÜRCÜSTANDA 2000 MÜƏLLİMİN ALİ TƏHSİLİ YOXDUR



Gürcüstan Dövlət Audit Xidməti ümumitəhsil məktəblərində əsas fənləri tədris edən yüzlərlə pedaqoqun ali təhsilinin olmadığını aşkarlayıb. Bu barədə idarənin hesabatında məlumat verilir.

Dövlət Audit Xidməti 2016-cı ildə keçirdiyi 71 yoxlama əsasında il ərzində görülən işlərin hesabatını təqdim edib. Pozuntular əsasən bələdiyyələrdə aşkarlanıb.

Hesabatda deyilir: "Ümumitəhsil məktəblərində əsas fənləri tədris edən 67 min müəllimdən 2 mininin ali təhsili yoxdur və ümumi və ya peşə təhsili var. Bu kontingentdən yalnız 4%-i fənn üzrə imtahan verib".

Dövlət Audit Xidmətinin məlumatına görə, kadrların ixtisaslarının zəifliyi bir sıra səbəblərlə bağlıdır. Birincisi, müəllimlərin ixtisaslarının artırılması sahəsində ardıcıl siyasətin və onların peşəkar inkişafının təmin edilməsi üçün resursların kifayət qədər olmamasıdır.

Dövlət Audit Xidməti yeni kadrların çatışmazlığını ikinci səbəb kimi göstərib.

Bununla belə məktəblərdə elan olunan vakansiyalarda ixtisasa və ali təhsilə dair tələbat yoxdur. Əməkhaqqı isə reallıqda olandan aşağı göstərilir ki, bu da vakansiyanı gözdən salır və rəqabəti zəiflədir.

Hesabata görə, il ərzində Gürcüstan məktəblərinin yalnız 50%-də işə yüksəkixtisaslı müəllimlər götürməyə üstünlük verilib, qalanları isə əksinə hərəkət ediblər.

Digər bir problem isə kadr çatışmazlığıdır və bu üzdən də regionlarda uşaqlar tam təhsil almırlar. Tbilisidə və böyük şəhərlərdə pedaqoq çatışmazlığı yoxdur, lakin tez-tez elə hallar olur ki, pedaqoq yalnız bir ixtisasa sahib olsa da, bir neçə fənn tədris edir.

Dövlət Audit Xidməti Gürcüstan Təhsil və Elm Nazirliyinə pedaqoqların vakansiyasına dair elanları düzgün keçirməyi və işə ixtisaslı müəllimlərin qəbul olunmasını təmin etməyi tövsiyə edir.

# SAYAT NOVA MİLLİYƏTCƏ AZƏRBAYCANLI İMİŞ

Bondo ARVELADZE




***Artıq bir əsr yarımdır ki, Sayat Novanın bioqrafiyası və poeziyası alimlərin araşdırma obyektidir. Bu zaman ərzində Sayat Novanın bioqrafiyası haqqında əsaslı və əsassız şəkildə fərziyyə və fikirlər söylənilib. Lakin bu qədər axtarış və araşdırma aparılmasına baxmayaraq, hələ də aşığın doğum tarixi belə dəqiq müəyyənləşdirilməyib. Gürcü elmi ictimaiyyətinə və gürcü oxucusuna bildirmək istəyirəm ki, sayatnovaşünaslıqda yeni mərhələ başladı. Məsələ bundadır ki, elmi ədəbiyyatda indiyə qədər qəbul edilmiş Sayat Novanın erməniliyi təkzib edilir və onun milliyyətcə azərbaycanlı, müsəlman olduğu söylənir.***

Yeni fikrin müəllifləri professor Sayat Əmirzadə və professor Sərra Sərablı Sayat Nova haqqında 400 səhifəlik geniş monoqrafiyə dərc ediblər. Kitab rus dilində çap olunub. Müəlliflər elə kitabın əvvəlindəcə Sayat Novanın azərbaycanlı, müsəlman olduğunu bildirirlər – "Sayat Nova öz milliyətini ( azərbaycanlılığını) şeirlərində kod şəklində çatdırıb. Eyni zamanda Sayat Nova Məhəmməd peyğəmbərin davamçıları olan Seyid nəslindən idi."

Deməli, Sayat Nova Məhəmmədin nəslindən idi.

Müəlliflər kitabda həmçinin bildirirlər ki, bu kitab sayatnovaşünaslıqda böyük Azərbaycan şairi – sufi Sayat Novanın gerçək milliyətini müəyyən edən ilk addımdır. 160 il ərzində erməni alimləri onun azərbaycanlılığını öz monoqrafiya və əsərlərində gizlədirdilər. Onlar Sayat Novanın gerçək milliyyətini – azərbaycanlılığını saxtalaşdıraraq, onu erməni elan etməyə nail olublar.

Onlar qeyd edirlər ki, böyük şair Nəsimini ölümlə cəzalandırdılar, Sayat Novanı isə erməni monastrına həbs etdilər. 30 il ərzində o burada işgəncə çəkmiş, lakin islamı inkar edərək monofizit-qriqorianlığı qəbul etməmişdir.

***Professor Əmirzadə və professor Sarablı ümid etdiklərini bildiriblər ki, Sayat Novanın gerçək bioqrafiyasının elmi şəkildə müəyyən edilməsi yolunda onların monoqrafiyası ilk addım olacaq. Onlar düşünürlər ki, Seyid Sayat Nova böyük əcdadlarının – Nizaminin, Xəqaninin, Fizulinin, Nəsiminin yanında özünə aid olan yeri tutacaq.***

"Sakartvelos Respublika" qəzeti,
2 iyun 2017-ci il
Gürcücədən çevirəni: Afayət Afiq

# „SAYAT NOVA – MƏN DOSTUMUN HİCRİYLƏ OYANDIM" – ŞAİRİN HƏYATI HAQQINDA YENİ ELMİ KİTAB



Tbilisidə rus dilində Sayat Novanın həyatı və poeziya irsi ilə bağlı " Sayat Nova – Mən dostumun hicriylə oyandım" adlı elmi kitab nəşr edilib.

Kitabın müəllifləri oxucuları 18-ci əsrin aşıq-şairi Sayat Nova təxəllüslü, əsl adı Harut Seyid olan, müsəlman, azərbaycanlı, tiflisli sufi əxi şeyxin həyatının elmi şəkildə araşdırılması ilə tanış edirlər.

Elmi əsərin müəllifləri Azərbaycan vətəndaşları Sayat Əmirzadə və Sara Sarablıdır.

Kitabda Sayat Novanın – Harut Seyidin mədəni irsinin dərin filoloji analizi, həmçinin də elmi olaraq əsaslandırılmış nəticələr verilir.

Elmi əsər Sayat Novanın yüzdən artıq nəğməsini əhatə edir.

Müəlliflərin məlumatına görə, bu cür elmi və irimiqyaslı analiz aşıq-sufi Sayat Novanın və onun lirik yaradıcılığının tədqiqi təcrübəsində ilk dəfədir ki, istifadə edilir.

Bu araşdırmanın əsas əhəmiyyəti ondadır ki, tədqiqat tarixində ilk dəfə şairin öz şeirləri bioqrafiyası üçün etibarlı əsas verir.

Oxucu Sayat Novanın necə böyüyüb inkişaf etdiyini, necə təhsil aldığını, illər əvvəl Tiflisə necə gəlib çıxdığını, onun və valideynlərinin hansı dini inanca sahib olduqlarını, onun nə zaman şeir yazmağa başladığını, ustadının kim olduğu, onun nə üçün Hindistana səfər etdiyini, nə üçün "küfr"də ittiham edildiyini və nə üçün erməni monastrına düşdüyünü və bir sıra başqa məsələlərlə bağlı məlumat alır.

Əvvəllər araşdırmacıların diqqətini çəkməyən "Vücudnamə" adlı şeir onun bioqrafiyası ilə bağlı önəmli məlumatlar verir.

Bu şeir bir çox qarışıq, qaranlıq və bugünə qədər də mübahisəli qalan suallara cavab verməyə imkan yaradır. Bu şeir yalnız şairin milliyətini müəyyən etmək üçün deyil, eyni zamanda uşaqlıqda müsəlman orucu tutduğunu, firavanlıq içində yaşadığını, musiqi öyrəndiyini, Sədi Şirazinin fikirləri ilə qidalandığını, Hindistanda olduğunu, sufi yolunun "acılığ"ının dəyərini anladığını,"uçan" ruhani (sufi metaforası) dərəcəsinə qalxdığını müəyyənləşdirməyə imkan verir.

Bununla belə, bu şeir onun həyatınınn bir çox səhifələrini müəyyən etməyə imkan verir.

Bir fokus kimi bu şeirdə bir çox bioqrafik məlumat toplanıb. Bu şeir sanki bütöv avtobioqrafik sənəddir.

http://kvira.ge/331243

# MƏMMƏD İSMAYILIN ŞEİRİ İTALIYADA DARVİN MUZEYİNİN DİVARINA HƏKK EDİLİB



Türkiyədə yaşayan həmyerlimiz şair Məmməd İsmayıl iyunun 1-dən 6-dək İtalyanın iki vilayətində gerçəkləşdirilən 19-cu əsrin iki romantik şairi Giacomo Leoparti (İtalya) və Mihai Eminuscuya (Rumınya) həsr edilən Beynəlxalq şeir şöləninə qatılıb.

Kulis.azın verdiyi xəbərə görə, şeir şöləni İtalyanın Rekanati şəhərində keçirilib. Türkiyə, ABŞ, Brazilya, İsrail, Belçika, İtalya, Rumınya, Moldava, Rusiya, İrlandiya, Litva, Estonya, və s. ölkələrən gələn 30-dan çox şair 6 gün ərzində İtalyanın şəhər və qəsəbələrində olub, oxucularla görüşlər keçirib və bu ölkənin qədim mədəniyyətləri ilə tanış olublar.

Şeir şöləninə qatılan şairlərin italyan dilinə tərcümə edilmiş əsərlərindən ibarət "Dünya şeir antologiyası" nəfis şəkildə çap olunub. Antologiyada Məmməd İsmayılın beş şeiri yer alıb.

Şölənin önəmli yönlərindən biri də iştirakçı şairlərin bir şerinin şeir şölənin keçirildiyi şəhərlərdəki küçə və muzeylərin çöl divarlarına həkk olunması idi. Məmməd İsmayılın "Biz dörd nəfər idik" şeri Rocca d'Apce şəhərindəki Darvin muzeyinin önündəki divara həkk edilib.

Dünya şeir şölənində İncəsənət Respublikası təsis olunub. Tədbirə qatılanlar bu İncəsənət Respublikasının qurucu üzvləri və öz ölkələrində təmsilçi-prezidentləri seçiliblər.

İncəsənət Respublikası dünya şerini, musiqisini, rəssamlığını təbliğ etmək və tanıtmaq üçün qurulub. İncəsənət Respublikasının öz mətbu orqanları, saytı, jurnalları, sərgi salonları və s. olacaq. Hər təmsilçi öz ölkəsinin incəsənətini bu İncəsənət Respublikası vasitəsilə dünyaya tanıtmağa borcludur. İldə bir dəfə qurucu üzvlər Romaya toplaşacaq və gördükləri işlərlə bağlı hesabat verəcəklər.

# LONDON KİTABXANASINDA AZƏRBAYCAN ƏDƏBİYYATI BÖLMƏSİ FƏALİYYƏTƏ BAŞLAYIB



Londonun Walthamstow Central Library Kitabxanasında Azərbaycan ədəbiyyatı bölməsi fəaliyyətə başlayıb. Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru, yazıçı-ədəbiyyatşünas Vaqif Sultanlının təşəbbüsü ilə yaradılan bölmədə klassik və müasir ədəbiyyat örnəkləri oxucuların mühakiməsinə verilib.

Azərbaycan dilində bədii və elmi-publisistik əsərlərdən ibarət bölmənin yaradılması Bakı Dövlət Universitetinin və AMEA-nın Elmi Kitabxanası, "Xan" nəşriyyatı, həmçinin ayrı-ayrı yazıçı və alimlərin dəstəyi ilə gerçəkləşib.

Kitabxananın dünya dillərində bədii ədəbiyyatın sərgiləndiyi böyük salonunda yerləşən bölməyə indiyədək 300-ə yaxın kitab göndərilib. Bölmədə klassik və müasir Azərbaycan ədəbiyyatı nümunələri ilə yanaşı, gənc yazarların əsərləri, habelə "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi" dastanları, nağıllar və lətifələrdən ibarət folklor materialları da yer almaqdadır. Bölmədəki kitablar kataloqa salınıb, hissə-hissə oxuculara təqdim olunması nəzərdə tutulur.

Qeyd edək ki, Walthamstow Central Library Kitabxanasında açılan Azərbaycan dilində ədəbiyyat fondu postsovet ölkələri içərində Rusiyadan sonra yaradılan ikinci bölmədir.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 iyun 2017-ci il
№011 (49)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## AZƏRBAYCAN XALÇALARI TBİLİSİDƏ NÜMAYİŞ ETDİRİLƏCƏK



Azərbaycan xalçaları iyunun 28-dən iyulun 2-dək Tbilisidə keçiriləcək Beynəlxalq xalça festivalında nümayiş etdiriləcək.

Festival iyunun 28-də Tbilisidəki Xalq Tətbiqi İncəsənət Muzeyində Azərbaycan Dövlət Xalça Muzeyinin eksponatları ilə açılacaq. Ekspozisiya bir ay tamaşaçıların üzünə açıq olacaq.

Festival iyunun 30-dan iyulun 2-dək Axalsıxdakı orta əsrlərə aid Rabat qalasının ərazisində davam edəcək.

Festivalda müasir İran, Türkmənistan, Türkiyə, Qırğızıstan, Hindistan və Gürcüstan xalçaçılıq nümunələri də təqdim olunacaq.

Yerli və dəvət olunmuş əcnəbi ustalar öz məhsullarını təqdim edəcək, habelə xalça toxumanın müxtəlif texnika və proseslərini nümayiş etdirəcəklər. Bundan əlavə, xalça hazırlama texnikası, ornament işləmə, boyama, dizayn və bu kimi ustad dərsləri və müxtəlif maarifləndirici proqramlar keçiriləcək.

## BEYNƏLXALQ ARXEOLOJİ EKSPEDİSİYA İMİR TƏPƏSİNDƏ ÖZ İŞİNİ TAMAMLADI

Marneuli Bələdiyyəsinin İmir kəndində b.e.ə. VI minilliyə aid edilən arxeoloji abidələrdə (İmir Təpəsi və Şulaver Təpəsi) Gürcüstanın Milli Muzeyi və Toronto Universitetinin birgə apardığı bir aylıq arxeoloji ekspedisiya işləri sona çatıb.

Məsələ ilə bağlı İmir təpəsi arxeoloji abidəsində tədbir təşkil olunub. Görüşdə Kvemo Kartli Qubernatorunun müavini Aleksandre Metreveli, Marneulinin icra başçısı Merab Topçişvili, bələdiyyə sədri Nəbi Abdullayev və yerli hakimiyyətin digər nümayəndələri, Gürcüstan Milli Şərab Agentliyinin rəhbəri Qiorqi Samanişvili, agentlik rəhbərinin müavini David Mağradze, Mədəni İrs Agentliyi baş direktorunun müavini Paata Qaprindaşvili, Gürcüstan tərəfinin ekspedisiya rəhbəri, professor Mindia Calabadze, Toronto Universitetinin professorları Endryu Qrehem və Stefan Batiyuk iştirak ediblər.

Tərəflər bu il həyata keçirilən işləri yekunlaşdıraraq, abidənin əhəmiyyətindən bəhs edib, muzeyin konsepsiyası məsələlərini və gələcək planlarını müzakirə ediblər.

Qeyd etmək lazımdır ki, 2014-cü ildən Gürcüstan hakimiyyətinin dəstəyi ilə Milli Şərab Agentliyinin, Gürcüstanın Milli Muzeyi və “Gürcü Şərabı” Asosiasiyasının birgə layihəsi olan “Gürcü Üzüm Tənəyi və Şərab Mədəniyyətinin Araşdırılması” dünya miqyasında gürcü şərabının inkşafı və təbliğatına təkan verir. Layihə çərçivəsində neolit dövrünün qədim yaşayış məskəni – İmir Təpəsində və Gürcüstanın digər bölgələrində müxtəlif tarixi dövrlərə aid aşkar olunan üzüm tənəyi qalıqlarının araşdırılması və yerüstü arxeoloji qazıntılar davam edir.

Gürcü elm işçiləri ilə birlikdə layihədə Pensilvaniya, Milan, Kopenhagen, Toronto universitetlərinin, İsrailin Vaisman İnstitutunun və Monpeliyanın Aqrar Araşdırmaları İnstitutunun tədqiqatçıları fəaliyyət göstərirlər. Layihənin rəhbəri Gürcüstan Milli Elmlər Akademiyasının müxbir üzvü David Lortkipanidzedir. Layihənin meneceri Levan Davitaşvili, koordinatoru isə David




Mağradzedir. Arxeoloji ekspedisiyanın rəhbəri, Milli Muzeyə məxsus arxeoloji kolleksiyaların baş kuratoru professor Mindia Calabadzedir.

Arxeoloji qazıntılar nəticəsində Kvemo Kartlidə b.e.ə. VI minilliyə aid edilən qədim üzüm tənək qalıqları tapılıb. Ətraflı araşdırmalar nəticəsində bəlli olub ki, yabanı tənəkləri insanlar ilk dəfə Gürcüstanda mədəni şəkildə becərməyə başlayıblar, daha sonra isə, zaman keçdikcə şərab mədəniyyəti yaranıb. Saxsı qablarda üzüm toxumlarının qalıqları tapılıb ki, bu da həmin qablarda şərab olduğunu təsdiqləyir.

“Gürcü Tənəyi və Şərab Mədəniyyətinin Araşdırılması” beynəlxalq layihəsinə 2014-cü ildən başlanılıb. Bu müddət ərzində yaşayış məntəqələri, müxtəlif əmək alətləri, qablar, məişət çuxurları və s. tapılıb.

Tapılan alətlər, əşyalar üzərindəki naxışlar və paleobotanik aşardırmalar nəticəsində Gürcüstan ərazisində daha qədimdən üzümçülük mədəniyyətinin mövcud olduğu təsdiqlənib.

Proqramın məqsədi Gürcü mədəni abidələrini araşdıran elm işçilər arasında Gürcüstan tarixinin, eləcə də arxeologiya, etnologiya, paleobotanika kimi sahələrin təbliğatıdır.

Turac İBRAHIMOVA

## KUTAİSİ BEYNƏLXALQ AEROPORTU DÜNYANIN 12 ƏN GÖZƏL HAVA LİMANI SİYAHISINA DAXİL EDİLİB



David Ağmaşenebeli adına Kutaisi Beynəlxalq Hava Limanı Curbed nəşrinin tərtib etdiyi dünyanın 12 ən gözəl aeroportu siyahısına daxil edilib.

Kutaisi Beynəlxalq Hava Limanı populyarlığına görə Gürcüstanın ikinici aeroportudur. Belə ki, buradan dünyanın ayrı-ayrı nöqtələrinə reyslər həyata keçirilir. Hava limanı Kutaisinin mərkəzindən 14 kilometr aralıda yerləşir. Bu aeroport 2012-ci ilin payızında açılıb. Kutaisi Beynəlxalq Hava Limanını arxitektor Ben van Berkel layihələndirib.

Nəşrin versiyasına görə Heydər Əliyev Beynəlxalq Hava Limanı (Azərbaycan) və Pulkovo Beynəlxalq Hava Limanı (Rusiya) ən gözəl aeroportlar arasındadır.

Denver Beynəlxalq Hava Limanı (ABŞ), Madrid-Baraxas Beynəlxalq Hava Limanı (İspaniya), Kansay Beynəlxalq Hava Limanı (Yaponiya), Pekin Beynəlxalq Hava Limanı (Çin), Şençjen Baoan Beynəlxalq Hava Limanı (Çin), Çatrapati Şivaci adına Beynəlxalq Hava Limanı (Hindistan), Kuala-Lumpur Beynəlxalq Hava Limanı (Malayziya), Marrakeşa Menara Hava Limanı (Mərakeş) və Kraliçə Aliyə Beynəlxalq Hava Limanı (İordaniya) da nəşrin ən gözəl aeroportlar siyahısına daxil edilib.

## ELTON CONUN KONSERTİNƏ VİP BİLETLƏR 550 LARİDƏN BAŞLAYIR



Elton Conun konsertində iştirak etmək üçün VİP biletlərin qiyməti 550 və 700 lari olacaq. Bu barədə məlumatı SOLO və Eastern Promotions yayıb.

SOLO-nun müştəriləri üçün (TiBiSi Bank satır) VİP biletlərin qiyməti 550 lari, digər arzu edənlər üçünsə 700 lari təşkil edəcək.

SOLO-nun müştəriləri üçün biletlərin minimal qiyməti 90 lari, digərləri üçünsə 150 laridir.

Yuxarı sektorlarda oturma bileti SOLO-nun müştəriləri üçün 120 lari, digərləri üçün 180 lari olacaq.

Orta sektora bilet alan SOLO müştəriləri 150 lari, digərləri 230 lari ödəyəcəklər.

Aşağı sektorda SOLO-nun müştəriləri üçün biletlərin qiyməti 250 lari, digər arzulayanlar üçün 350 lari təşkil edəcək.

Golden Ring üçün SOLO-nun müştəriləri 140 lari, digər arzulayanlar 220 lari ödəməli olacaqlar.

İngilis ulduz Black Sea Arena-da bu ilin 16 sentyabrında konsert verəcək.

SOLO-nun müştəriləri iyunun 25-dən tkt.ge vasitəsilə bilet ala biləcəklər. Digər arzulayan şəxslər isə iyunun 29-dan bilet almaq imkanına malik olacaqlar.

## YAPONLAR ƏRİMƏYƏN DONDURMA İSTEHSALINA BAŞLADILAR



Yaponiyanın İsikava prefekturasının Kanadzave şəhərindəki dondurma mağazalarında alıcıların təəccübünə səbəb olan dondurmalar təqdim olunur. Bu ilin aprel ayından “Kanadzava aysu” mağazası əriməyən dondurmaların satışına başlayıb. Bu dondurmaları isti otaq şəraitində üç saatdan artıq saxlamaq mümkündür, hətta fendən vurulan isti hava da onu əritmir və o, öz möhkəmliyini qoruyub saxlayır.

Artıq bizdə də dondurma satışı mövsümü başladığından bu xəbər inanırıq ki, yayın qızmar günlərində dondurma yeməyi sevənlər tərəfindən xoş qarşılanacaq.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”

GEORGIAN SOCIETY OF YOUTH SUPPORT AND EDUCATION
GYMD

Redaktor:
Afiq Muxtaroğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 595 92 25 70
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.